**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

Təsdiq edirəm:
«İqtisadiyyat» kafedrasının
müdiri: i.ü.f.d., S.İ.Hümbətova

# SİYASİ FİKİR TARİXİ

## FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
## (Sillabus)

| | | | | | |
|---|---|---|---|---|---|
| Fakültə | **İqtisadiyyat və idarəetmə** | | | | |
| Kafedra | **İqtisadiyyat** | | | | |
| Fənnin kodu | **01086** | | | | |
| Fənnin növü | **Əsas** | | | | |
| Bölmə | **Azərbaycan** | | | | |
| Tədrisin forması, tədris yükü | Semestr **Payız** | Tədris yükü: **45 saat** | Mühazirə **30 saat** | Məşğələ **15 saat** | Kredit **4** |

| | |
|---|---|
| **I. Fənnin təsviri** | Bu fənnin tədrisi sosial institut kim siyasətin məqsəd və vəzifələrinin tələbələrə öyrədilməsi, onun bir elm kimi meydana gəlməsi zərurətini onlara izah etmək məqsədi daşıyır. Siyasi fikrin təşəkkülünün tarixi mərhələləri, insan və siyasət problemi, siyasi hakimiyyət, siyasi sistem və onun strukturu, dövlət və siyasi partiyaların siyasi həyatda rolu, demokratiya institutlarının vətəndaş cəmiyyətinin təşəkkülünə göstərdiyi təsir, şəxsiyyətin sosiallaşması prosesi, bu prosesdə ideologiyaların rolu öz əksini tapır. Bundan əlavə, cəmiyyətdə siyasi münaqişələrin həlli yolları, müasir sivilizasiya və qlobal problemlər məsələsi də kursun tədrisində əsas yerlərdən birini tutur. |
| **II. Fənnin məqsədi və vəzifələri** | **Fənnin tədrisinin məqsədi:**<br>Gənc nəslin əsas aparıcı qüvvələrindən biri olan tələbələrdə siyasət, siyasi münasibətlər və mənafelər haqqında aydın təsəvvür yaratmaq, cəmiyyətin siyasi sisteminə daxil olan struktur elementləri haqqında onları məlumatlandırmaq, siyasi partiyaların və ictimai-kütləvi təşkilatların işində praktiki surətdə iştirak etmək imkanını dərk etmələrinə nail olmaq. Bu işdə onların siyasi şüurunun inkişaf etdirilməsi, bu məqsədlə siyasi biliklərə, siyasi mədəniyyət elementlərinə yiyələnmələri həlledici əhəmiyyətə malikdir.<br>Fənnin tədrisi elə planlaşdırılmışdır ki, tələbələr ümumi nəzəri praktiki siyasi biliklərə yiyələnəcək, sonrakı tədris fənlərini öyrənərkən bu kurs daxilində |

| | |
|---|---|
| | qazandıqları bilik və bacarıqları daha da möhkəmlədəcək, həmçinin müstəqil iş prosesində siyasi nəzəri və təcrübi kompetensiyalara yiyələnəcəklər.<br>«Siyasi fikir tarixi» fənninin mənimsənilməsi siyasi elm sahəsində mövcud bilikləri sistemləşdirməyə və genişləndirməyə, həmçinin tələbələrdə müasir dünya siyasətinin inkişafı üzrə əsaslı təsəvvür formalaşmasına kömək edəcək.<br>«Siyasi fikir tarixi» fənninin öyrənilməsi nəticəsində tələbələr əsas siyasi anlayışlar və kateqoriyalar, onların qarşılıqlı əlaqəsini mənimsəyəcək; mürəkkəb və bütöv sistem kimi dünya siyasəti haqqında, dövlət, siyasi partiyalar, siyasi sistem, siyasi münasibətlər və başqa təsisatların rolu haqqında təsəvvür əldə edəcək. Kursun öyrənilməsi prosesində tələbələrə gələcəkdə lazım olacaq siyasi anlayışlar və siyasi düşüncə tərzi formalaşacaq, bu da öz növbəsində, digər fənlərin öyrənilməsini asanlaşdıracaq.<br>**Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:**<br>- Siyasi elmin xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;<br>- Siyasi elmə müxtəlif yanaşmalar üzrə və səviyyələrdə səciyyələndirilməsini tələbələrə başa salmaq;<br>- müasir dövrdə siyasi elmin elminin predmeti və metodları haqqinda biliklər əldə etmək;<br>- tədris prosesində siyasi institutlar, onların formalaşması və fəaliyyətinin tənzimlnməsi sahəsində vərdişlər əldə etmək:<br>- dövlət tərəfindən institutların fəaliyyətinin təşkili üzrə həyata keçirilən tədbirlərlə reallaşması prinsipləri ilə tanış olmaq;<br>- siyasi proseslərin idarə edilməsində institutsional yanaşmanın üstünlüklərini tələbələrə aşılamaq;<br><br>**Fənnin, tədris planının digər fənləri arasında yeri.**<br>Bu fənnin öyrənilməsi tələbələrin orta məktəbdə əldə etdiyi ictimai bliklərə istinad edir, beynəlxalq münasibətlər nəzəriyyəsi, tarixi, hüquq və s. bu kimi siyasi məzmunlu fənlərin dərindən öyrənilməsi üçün zəruri əsasdır. |
| **III. Öyrənmənin nəticələri:** | Bu fənni bitirdikdən sonra hər bir tələbə özünə məxsus siyasi biliklərə yiyələnəcək, ölkənin və cəmiyyətin siyasi həyatında öz mövqeyinə malik olacaq və siyasi proseslərə müstəqil qiymət verə biləcəkdir.<br>«Siyasi fikir tarixi» fənninin mənimsənilməsindən sonra tələbələr:<br>**Bilməlidirlər:**<br>1. Siyasi elmin formalaşmasının nəzəri metodoloyi əsaslarını;<br>2. Siyasi münasibətlərin tənzimlənməsinə dair müasir nəzəriyyələri;<br>3. Siyasi münasibətlərin institutsional aspektlərini;<br>4. Siyasi təsisatların idarə edilməsinin qanunauyğunluqlarını;<br>5. Siyasi hakimiyyətin həyata keçirilməsinin alətləri və mexanizmlərini.<br><br>**Bacarmalıdırlar**:<br>1. Siyasi elmin formalaşması probleminin tədqiqi üçün siyasi təhlil metodlarını bacarıqlq tətbiq etmək.<br>2. Siaysi münasibətlərin tənzimlənməsində dövlətin mövqeyini dəqiq müəyyənləşdirmək üzrə əsaslandırılmış əməli mövqeyə sahib olmaq;<br>3. Siyasi münasibətlərin inkişaf istiqamətlərini düzgün proqnozlaşdırmaq;<br>4. Siyasi təsisatların inkişaf məsələlərinin səmərəli həlli variantlarını işləyib |

| | |
|---|---|
| | hazırlamaq<br>**Tanış olmalıdır:**<br>1. Siyasi fikrin inkişafının təhlilinin əsas istiqamətləri ilə;<br>2. Müasir beynəlxalq münasibətlərin inkişaf istiqamətlərinin düzgün dərk edilməsi və problemlərinin səmərəli həlli üçün siyasi təhlildən bacarıqla istifadə məsələləri ilə. |
| **IV. Fənnin mühazirə mövzuları** | **Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:**<br>1. Siyasi elmin təşəkkülü, predmeti, kateqoriyaları,tədqiqat metodları<br>2. Siyasi fikrin inkişafının əsas mərhələləri<br>3. Azərbaycanda siyasi fikrin inkişafı<br>4. Siyasi münasibətlər və mənafelər<br>5. İnsan və siyasət. Siyasi liderlik və siyasi elita<br>6. Siyasi hakimiyyət. Hakimiyyətin tipləri<br>7. Cəmiyyətin siyasi sistemi.<br>8. Siyasi partiyalar və ictimai-kütləvi təşkilatlar<br>9. Demokratiya və siyasi həyatın demokratik əsasları<br>10. Sosial qruplar və sosial siyasət<br>11. Siyasi şüur və siyasi mədəniyyət<br>12. Siyasi ideologiyalar<br>13. Milli və dini siyasət<br>14. Dünyanın inkişafına dair müasir doktrinalar<br>15. Müasir sivilizasiya və qlobal siyasi problemlər |
| **V. Fənnin mühazirə mətnləri** | Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında «Virtual universitet» bölməsində (www.vu.aseu.az) yerləşdirilir. |
| **VI. Prerekvizitlər** | Orta məktəb kursları - «ictimaiyyət», «tarix». |
| **VII. Fənnin tədris metodologiyası** | «Siyasi fikir tarixi» fənninin öyrənilməsi prosesində tədrisin aşağıdakı metodları istifadə olunur: mühazirələr; mühazirələrdə işıqlandırılan və ev tapşırıqlarında formulə edilən əsas problemlərin müzakirə edildiyi seminarlar; kompüter məşğələləri; yazılı və ya şifahi ev tapşırıqları; analitik təhlil; tələbələr tərəfindən hazırlanmış esselərin müzakirəsi; müəllimlərin məsləhətləri; tələbələrin nəzəri materialın mənimsənilməsini ehtiva edən sərbəst işi, seminar məşğələlərinə hazırlıq, yuxarıda göstərilmiş yazılı işlərin yerinə yetirilməsi.<br>Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.<br>Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar. |
| **VIII. Əsas dərslik və dərs vəsaitləri** | 1.Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, 1995.<br>2.Azərbaycan Demokratik Respubilkası. Bakı, 1990 |

| | |
|---|---|
| | 3.Şirinov A., İbadov N. Politologiya. Bakı, 2015<br>4.Politologiya. Dərs vəsaiti. ADİU, Bakı, 2005<br>5.M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990<br>6.Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya. Bakı, 2014<br>7.Məmmədov Z.İ. Demokratik cəmiyyət şəraitində şəxsiyyət və siyasət.Bakı, 2000<br>8.Məmmədov Z. Əhali artımı və ərzaq problemi. Bakı, 1985<br>9.M.Məlikova, B.Bayramov. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi.Bakı, 1984<br>10.Həsənov Ə. Geosiyasət. Bakı, 2014<br>11.Demokratiya.Bakı., 1999.<br>12.Dinc yanaşı yaşamaq uğrunda. Bakı, 1987.<br>13.X.H.Orucov. Siyasi hakimiyyət. Bakı, 2003<br>14.E.Dadaşova. Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşmasında demokratik proseslərin rolu. Bakı, 2002.<br>15.Nizamülmük. Siyasətnamə. Bakı, 1989.<br>16.Siyasi liderlik. Bakı, 2005<br>17.L.S.Sanisteban. Siyasət elminin əsasları. Bakı, 1994.<br>18.Nəsirəddin Tusi. Əxlaqi-nasiri. Bakı, 1989.<br>19.Hüseynov H. Azərbaycan fəlsəfi fikir tarixi. Bakı, 1949<br>20.Hantinqton S. The clash of civilizations. N.Y.1996<br>21.Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı, 1985<br>22.Cəmiyyət. Siyasət. İdeologiya. Bakı, 1997.<br>23.Siyasal düşünceler tarihi. Ankara, 2019<br>24.Monteskye Ş.L. Qanunların ruhu. Bakı, 2011<br>25.İctimai Birliklər haqqında Qanun. Bakı, 1992.<br>26.Böyük və kiçik partiyalar. Dirçəliş, № 1, 1991.<br>27.Аристотель. Политика. М., 1983 г.<br>28.Вебер М. Политика как призвание и профессия. М., 1990.<br>29.Зеленев Л.А., Владимиров А.А. Основы политологии. М., 2000.<br>30.Зернин Д.П. Основы Политологии. М., 1991.<br>31.История политических и. правовых учений. М., 1988.<br>32.А.И.Демидов. Политология. М., 2004.<br>33.Шестопал Е.Б. Личность и политика. М., 1999.<br>34.Шегорцев Б.А. Политическая культура: реальность и модели. М., 1990.<br>35.Пугачев В.П., Соловьёв А.И. Введение в политологию. М., 2001.<br>36.Г.Н.Смирнов. Политология. М., 2008.<br>37.Р.Г.Мухаев. Политология. М., 2008.<br>38.В.Н.Макаренко. Политология. Концептология. М., 2005.<br>39.Н.Макиавелли. Государь. М., 1989. |

**SEMİNAR MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1.Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2.Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3.Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4.Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5.Mövzu üzrə verilən tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

| |
|---|
| Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır. |

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

***Aralıq qiymətləndirmə.***

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən test imtahan sualları əsasında həyata keçirilir. Aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir.

**İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ**

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |

| | | |
|---|---|---|
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.